**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASİR AZƏRBAYCAN HEYKƏLTƏRAŞLIĞININ İNKİŞAFINDA CƏLAL QARYAĞDININ ROLU

İxtisas: 6215.01 – Təsviri sənət
Elmi sahəsi: Sənətşünaslıq

İddiaçı: **Ulya Rövşən qızı Abdullayeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2023**

Dissertasiya işi Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Xalq rəssamı, professor
**Fuad Məmməd-Emin oğlu Salayev**

Rəsmi opponentlər: Xalq rəssamı, professor
**Akif İzzətulla oğlu Əsgərov**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Fərida Altay qızı Mir-Bağırzadə**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Gülnaz Oruc qızı Mədətova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD2.34 Dissertasiya şurası

Dissertasiya şurasının sədr müavini: Sənətşünaslıq üzrə elmlər doktoru, professor
**Sevil Yusif qızı Sadıxova**

Dissertasiya şurasının elmi katibi: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Xanım Zəlimxan qızı Əsgərova**

Elmi seminarın sədri: Xalq rəssamı, professor
**Salxab İsa oğlu Məmmədov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Cəlal Məhərrəm oğlu Qaryağdı çağdaş Azərbaycan heykəltəraşlığının təməlini qoyan, bu qədim və ecazkar incəsənət növünün inkişaf istiqamətlərini müəyyənləşdirən görkəmli heykəltəraşlardan biridir. Onun yaratdığı əsərlərin Azərbaycan incəsənətinin inkişafında və zənginləşməsində əvəzsiz rolu danılmazdır.

Cəlal Qaryağdının əsərləri ümumilikdə monumentallığı, kompozisiya bütövlüyü, plastik vasitələrlə obrazın daxili aləminin aşkara çıxarılması, mahiranə plastik həlli, yaradıcılıq manerasının genişliyi ilə seçilir. Cəlal Qaryağdının yaradıcılıq diapazonu geniş və rəngarəngdir. O, monumental heykəl, büst, barelyef və qorelyef kimi heykəltəraşlığın müxtəlif növlərində özünü sınamış, möhtəşəm sənət nümunələri yaratmağa nail olmuşdur. Cəlal Qaryağdı həmişə zamanın fövqündə dayanan, daim axtarışda olan, yeniliyə can atan, yaratmaq eşqi bitib-tükənməyən sənət fədaisi olmuşdur. Belə zəhmətsevərliyinə, uğurlarına görə onu hər zaman xalqımız və dövlətimiz yüksək qiymətləndirmişdir. Heykəltəraş 1954-cü ildə Azərbaycan Əməkdar incəsənət xadimi, 1960-cı ildə Azərbaycanın Xalq rəssamı adına layiq görülmüşdür. O, həmçinin Qırmızı Əmək Bayrağı və "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir.

Sənətkarın monumental heykəltəraşlıq nümunələri ölkəmizin simasının formalaşmasına kömək edərək, müasir Azərbaycanın bir çox şəhər və kəndlərinin meydanlarını bəzəyir. Heykəltəraşın gərgin əməyinin bəhrəsi olan əsərləri bədii ifadə, tamaşaçını düşünməyə vadar etmək, məzmun, hərəkətlilik baxımından çox cəlbedicidir.

Mövzunun aktuallığı onunla bağlıdır ki, Azərbaycan heykəltəraşlığında özünəməxsus dəsti-xəttilə seçilən Cəlal Qaryağdının yaradıcılığı sənətşünaslıq baxımından yetərincə tədqiq olunmamışdır. Heykəltəraşın bir çox əsərlərinin nəinki sənət baxımından mükəmməlliyinə, hətta bəzi əsərlərinin adına belə onun yaradıcılığından bəhs edən məqalə və elmi araşdırmalarda rast gəlinmir.

*"Cəlal Qaryağdının yaradıcılığı sovetlər dönəminə təsadüf etdiyindən onun bir çox əsərlərini zamanın ideologiyasının tələblərindən kənar yaratması mümkün deyildi. Həmin əsərlər bu gün sənət nöqteyi-nəzərdən cəlbedici görünsələr də, bu əsərlərin ideoloji baxımdan geniş tamaşaçı auditoriyasının marağına səbəb olacağı mümkünsüzdür. Lakin unutmaq olmaz ki, heykəltəraş bu əsərlərin yaradılmasında gərgin fiziki*

*əməklə bərabər, yüksək yaradıcılıq enerjisi sərf etmişdir”*[1]. Bu əsərlərə iflasa uğramış siyasətin övladı kimi yox, gözəllik yaratmaq üçün çalışan sənət adamının daxili dünyasının məhsulu kimi baxsaq daha doğru olardı.

Tarixi janra həsr olunan və artıq abidələşən heykəllərlə yanaşı, bu gün emalatxanalarda qorunan, yaxud muzey ekspozisiyalarında nümayiş olunan əsərlər də tamaşaçını özünə cəlb edə bilir. Elə heykəltəraşlıq nümunələri də vardır ki, çağdaş ideologiyanın tələblərinə yad olduğu üçün məhv edilmişdir. Amma onlar ilk növbədə bugünkü nəsillərə adını eşidib, üzünü heç vaxt görmədikləri tarixin müəyyən dönəmində yaşayan və fəaliyyət göstərən yaradıcı insanları tanıtmaq baxımından maraqlı görünə bilərlər. Çalışacağıq ki, belə sənət əsərləri haqqında da bu tədqiqat işində geniş bəhs edək.

Mövzunun işlənməsi zamanı tanınmış sənətşünasların, bu sahənin tədqiqində əhəmiyyətli işlər görən elm adamlarının müxtəlif səpkili elmi məqalələrinə, dərslik və metodiki vəsait səviyyəli kitablara, incəsənət toplularındakı yazılara əsasən bu barədə fikir yürüdə bilərik. Düzdür, görkəmli heykəltəraşın həyat və yaradıcılıq fəaliyyəti haqqında görkəmli sənətşünaslarımız Məmmədağa Tərlanov[2] (1958), Telman İbrahimov[3] (2013) monoqrafiyalar yazmış, Cəmilə Novruzova[4], Ziyadxan Əliyev[5], Samir Sadıqov[6] və Əsəd Quliyev[7] mətbuatda çoxsaylı məqalələr dərc etdirmişlər. Bununla belə heykəltəraşın zəngin yaradıcılığıyla bağlı tədqiqat işləri bir o qədər də çox olmadığından, sənətkarın zəngin və çoxsahəli ömür və sənət yolunun elmi şəkildə araşdırılmasına, kölgədə qalan məqamlara işıq salmağa zərurət duyulur.

Cəlal Qaryağdının sənət dünyası, əsərlərinin estetik dəyəri, məna yükü, dolğun sənət inciləri kimi Azərbaycan heykəltəraşlığında əbədi yeri haqqında daha fundamental elmi araşdırmalar aparılacaqdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Cəlal Qaryağdının yaradıcılığıdır. Heykəltəraşın əsərlərindəki ənənəvilikdən

---

[1] Quliyev Ə. XX əsr Azərbaycan incəsənəti haqqında oçerklər / Ə.Quliyev. – Bakı: Təhsil, - 2012. – s. 111.
[2] Tərlanov M. Cəlal Qaryağdı / M.Tərlanov. Bakı: Azərnəşr, - 1958. - 80 s.
[3] İbrahimov T. Cəlal Qaryağdı / T.İbrahimov. - Bakı: Şərq-Qərb, - 2013. - 104 s.
[4] Новрузова Дж. Джалал Карягды [Изоматериал]. - Москва: Советский художник. - 1965 г.
[5] Əliyev Z. Daşları dilləndirən sənətkar // Azadlıq. – 2001, 4 yanvar. – s. 16.
[6] Sadıqov S. Heykəltəraş Cəlal Qaryağdının yaradıcılıq aləmi // Paritet. - 2012, 7-9 yanvar. – s. 16.
[7] Quliyev Ə. Tişə ustası Cəlal Qaryağdı // 525-ci qəzet. – 2012, 20 mart.

müasir milli düşüncəyə doğru inkişaf yolları, forma-biçim axtarışları, məna ilə məzmunun vəhdəti, heykəltəraşın özünəməxsus dəst-xətti və üslubu, dünyagörüşü əsas tədqiqat obyekti kimi təhlil edilir.

Tədqiqatın predmeti isə heykəltəraşın monumental heykəl, büst, barelyef, qorelyef və heykəltəraşlıq sənətinin digər növlərində yaratdığı əsərlərdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işində Cəlal Qaryağdının yaratdığı əsərlər sənətşünaslıq baxımından hərtərəfli tədqiq və təhlil olunmuşdur. Burada əsas məqsəd heykəltəraşın şərəflə keçdiyi həyat və səmərəli yaradıcılıq yolunun hərtərəfli izləmək, və əldə etdiyi uğurları aşkarlayıb önə çəkməkdir.

Eyni zamanda tədqiqatın əsas məqsədi XX əsrin 20-ci illərindən başlanğıcını götürən müasir Azərbaycan heykəltəraşlıq sənətinin görkəmli nümayəndəsi, geniş erudisiyalı sənətkar Cəlal Qaryağdının bu sənətin müxtəlif sahələrini əhatə edən yaradıcılığının bədii – estetik xüsusiyyətlərini dəyərləndirmək və elmi şərhini verməkdir. Heykəltəraşın zəngin irsini araşdırdıqca onun poeziyaya, musiqiyə və digər mənəvi gözəlliklərə münasibətinə, xalqımızın adət-ənənələrinə, etnoqrafiyasına, qəhrəmanlıq tarixinə dərindən bələd olmasına heyrətlənməmək olmur. Belə sənət nümunələrinin məcmusu olan heykəltəraşın yaradıcılığının elmi şərhinə müvəffəq olmaq üçün müxtəlif janrlı əsərlərinin dərindən təhlili əsas şərtdir.

Qarşıya qoyulan məqsəd aşağıdakı məsələlərin həllini tələb edir:

- Cəlal Qaryağdının həyat və yaradıcılığını şərh etmək;
- Cəlal Qaryağdı yaradıcılığının milli heykəltəraşlıq məktəbimizin formalaşmasında və yüksək inkişafında rolunu müəyyən etmək;
- Heykəltəraşın yaradıcılığındakı istiqamətləri müəyyənləşdirmək;
- Heykəltəraşın portret və qabartma sahələrindəki əsərlərini təhlil etmək;
- Xalq rəssamının monumental heykəllərinin təhlili və fəza-məkanla əlaqəsini dəyərləndirmək;
- Sənətkarın memorial-xatirə əsərlərini öyrənmək və onların ən mühüm nümunələrini təhlil etmək.

**Tədqiqat metodları.** Tədqiqatın metodologiyası mövzunun seçilməsi və onun müasir dövr Azərbaycan heykəltəraşlığı kontekstində tədqiq edilməsi zərurəti ilə şərtləndirilir. Tədqiqat işinin əsasını

heykəltəraşın zəngin və çoxşaxəli yaradıcılığında əksini tapmış müxtəlif mövzuların bədii cəhətlərinin aşkara çıxarılması və ayrı-ayrı əsərlərin təhlili təşkil edir. Tədqiqat işində diqqət yetirilən problemlərin təhlilində milli və ümumbəşəri dəyərlərdən, sənətşünaslığın elmi-nəzəri qənaətlərindən bəhrələnilmişdir, sistemli tarixi-müqayisəli metod Cəlal Qaryağdı və onun müasirlərinin yaradıcılığını Azərbaycan təsviri sənətində heykəltəraşlığın inkişafı problemləri ilə uzlaşdırmağa şərait yaradır. Müqayisəli təhlil metodu heykəltəraşlıq sahəsində çoxcəhətli fəaliyyət göstərən əcnəbi və yerli rəssamların yaradıcılığını qarşılaşdırmağa, tətbiq etdikləri hər növ bədii-texniki vasitələrlə müxtəlif janr və mövzularda ərsəyə gətirdikləri bədii əsərlərin əsas səciyyəvi cəhətlərini aşqarlamağa kömək edir. Eyni zamanda bu metod bədii-stilistik sənətşünaslıq təhlili çərçivəsində Cəlal Qaryağdı ilə yanaşı, digər heykəltəraşların da müqayisəyə cəlb edilmiş əsərlərinin obrazlı və stilistik həllinin xarakterinin üzə çıxarılmasını təmin edir. Tədqiq olunan heykəltəraşlıq əsərlərinin semantik, ikonoqrafik və ikonoloji təhlili onların obrazlı həllinin bədii-estetik səviyyəsini aşkarlamağa imkan verir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:** Cəlal Qaryağdının yaradıcılığı kompleks şəkildə tədqiq edilərək aşağıdakı müddəalar irəli sürülmüşdür:

- Cəlal Qaryağdının əsərləri ümumilikdə monumentallığı, janr müxtəlifliyi, kompozisiya bütövlüyü, plastik vasitələrlə obrazın daxili aləminin aşkara çıxarılması, mahiranə plastik həlli ilə seçilir;
- Portret əsərlərində yaratdığı insan obrazlarının dərin psixoloji cəhətlərinə daha çox diqqət yetirmişdir;
- Qədim və zəngin tariximizə, bədii ənənələrimizə, ədəbiyyatımıza olduqca yaxşı bələd olan heykəltəraşın yaradıcılığının əsas qayəsini millilik təşkil edir;
- Cəlal Qaryağdının dəzgah plastikasında bədii estetik və ifadə prinsiplərinə müvafiq kompozisiyalar yaratmasının başlıca səbəbi monumental heykəllərdə gerçəkləşdirə bilmədiyi incə duyğu və hissləri dəzgah heykəltəraşlığında ifadə etmək imkanına malik olmasıdır;
- Yaradıcılığının əsas hissəsi kommunist ideologiyasının üstün olduğu dövrlə üst-üstə düşsə də Cəlal Qaryağdının yaratdığı heykəllərdə bu siyasiləşmiş mövqelərə az rast gəlinir;
- Stabil, özünəməxsus yonulma manerası, forma, biçim və mütənasiblik meyarlarına sadiqlik, təxəyyülün, düşüncələrin

aydınlığı Cəlal Qaryağdı yaradıcılığının səciyyəvi xüsusiyyətlərindəndir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi bilavasitə Cəlal Qaryağdı yaradıcılığına əvvəllər mövcud olmuş bütün yanaşmalardan fərqli münasibətlə şərtlənir və bütünlükdə bu fərqli yanaşma aşağıdakı müddəalarda öz əksini tapmışdır:

- Cəlal Qaryağdının həyat və yaradıcılığı Azərbaycan sənətşünaslığında ilk dəfə olaraq tam və dolğun monoqrafik tədqiqat obyekti kimi kompleks şəkildə təqdim olunmuşdur;
- Görkəmli heykəltəraşın bu günədək dövrü mətbuatda və kitablarda işıqlandırılmayan müxtəlif mövzulu əsərləri tədqiq edilmiş və sistemli şəkildə təhlil edilmişdir;
- Cəlal Qaryağdının bütünlüklə yaradıcılıq fəaliyyəti əhatəli araşdırılmış və əldə olunan yekun nəticələr müddəalar şəklində əks olunmuşdur;
- İlk dəfə olaraq Cəlal Qaryağdı yaradıcılığını səciyyələndirən bədii-texniki xüsusiyyətlərin özünəməxsusluğu açıq şəkildə dəqiqləşdirilmişdir;
- Tədqiqat işi zamanı rəssamın ailə arxivindən istifadə edilməklə Cəlal Qaryağdıya aid olan əsərlərin bədii-texniki göstəriciləri ilk dəfə olaraq doğru şəkildə təqdim edilmişdir;
- Cəlal Qaryağdının müxtəlif zamanlarda yaratdığı və geniş ictimaiyyətə təqdim olunmayan, eləcə də elmi tədqiqata cəlb olunmayan memorial-xatirə əsərləri ilk dəfə olaraq ətraflı şəkildə tədqiq edilərək təhlil olunmuşdur.

Tədqiqat zamanı Azərbaycan heykəltəraşlığının keçdiyi inkişaf mərhələsi xronoloji ardıcıllıqla araşdırılmış və bu haqda lazımi qeydlər dissertasiyada qısa şəkildə öz əksini tapmışdır. Eyni zamanda tədqiqat işində XX əsrdə fəaliyyət göstərən görkəmli heykəltəraşların yaradıcılığına da müəyyən yer ayrılmışdır.

Əsasən müxtəlif illərdə dövrü mətbuatda dərc olunan məqalələrdən, eləcə də kitab və kataloqlarda istifadə edilməklə heykəltəraşın bütün yaradıcılıq dövrü araşdırılıb, ətraflı şəkildə tədqiq edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəticələri Azərbaycan təsviri incəsənət tarixinin genişləndirilməsinə xidmət etməklə, heykəltəraşlıq məktəbinin inkişafında Cəlal Qaryağdı yaradıcılığının rolunu müəyyənləşdirir.

Tədqiqat işi rəssamlıq təmayüllü ali və orta ixtisas təhsil müəssisələrində sənətşünaslıq və heykəltəraşlıq ixtisası üzrə təhsil alan tələbələr, eləcə də heykəltəraşlar üçün dəyərli tədris vəsaiti olaraq istifadə oluna bilər. Eyni zamanda dissertasiya işi Cəlal Qaryağdı yaradıcılığı haqqında yazılmış ayrıca elmi-tədqiqat işi kimi, bu sahədə çalışan hər bir fərd üçün dəyərli vəsaitdir.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmiş və kafedranın iclasında müzakirə olunmuşdur. Tədqiqatın əsas məzmunu, elmi mahiyyəti və əldə olunan nəticələr müxtəlif səviyyəli elmi konfranslarda dinlənilmiş, eləcə də dissertasiya müəllifinin çap olunmuş bir sıra elmi məqalələrində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrası.

**Dissertasiyanın struktur bölmələrinin ayrı-ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya iki fəsil, dörd paraqraf, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş - 10821; 1.1. - 30058; 1.2. - 61824; 2.1. - 60155; 2.2. - 35571; Nəticə - 11801 işarə olmaqla dissertasiyanın ümumi həcmi 210230 işarədən ibarətdir. Tədqiqat işinin məzmununu əks etdirən illüstrasiyalar isə albom şəklində dissertasiyaya əlavə kimi təqdim edilmişdir.

## İŞİN ÜMUMİ MƏZMUNU VƏ ƏSAS MÜDDƏALARI

Girişdə mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi haqqında məlumat verilir.

Dissertasiyanın iki paraqrafdan ibarət olan **"Cəlal Qaryağdı yaradıcılığında dəzgah heykəltəraşlığı"** adlı birinci fəslinin birinci paraqrafı **"Cəlal Qaryağdının heykəltəraş kimi formalaşması"** adlanır. Təsviri sənətimizin başqa növlərində görünən yeniliklər XX əsrin əvvəllərində heykəltəraşlığımızda da özünü büruzə verməyə başlayır. *"Heykəltəraşlığımızın bu günkü mənzərəsinin yaranmasına Azərbaycan Demokratik Respublikasının bolşeviklər tərəfindən işğalından sonra*

*Bakıda rəssamlıq məktəbinin açılmasının və yerli kadrların SSRİ-nin müxtəlif mərkəzi şəhərlərində heykəltəraşlıq sənətinə yiyələnmələrinin səbəb olması birmənalıdır. Elə sovetləşən Azərbaycanın ilk heykəltəraşlıq nümunələrinin yaradılmasında bilavasitə rus heykəltəraşlarının duyulası iştirakı olub. Y.Keylixis, Y.Tripolskaya, S.Qorodetski, S.Erzya, B.Sinayski və P.Sabsay 1920-1930-cu illərdə Bakıda ucaldılmış əksər abidələrin müəllifləri olmuşlar"*[8].

Professional milli heykəltəraşlığımızın əsas inkişafı 1930-1940-cı illərə təsadüf edir. Bu dövrün heykəltəraşlıq sənətindən bəhs edərkən adı Fuad Əbdürrəhmanovla qoşa çəkilən Cəlal Qaryağdının adını xüsusilə qeyd etməliyik.

Məlumat üçün qeyd edək ki, Cəlal Məhərrəm oğlu Qaryağdı 15 iyul 1914-cü ildə Azərbaycanın mədəniyyət beşiyi olan Şuşa şəhərində anadan olmuşdur. Şuşada məşhur xanəndə Cabbar Qaryağdıoğlunun qardaşının ailəsində dünyaya göz açan Cəlal Qaryağdıda təbii ki, sənət, yaradıcılıq meylləri olmaya bilməzdi.

1928-ci ildə Şuşada məktəbi bitirdikdən sonra təhsilini davam etdirmək üçün Bakıya gəlir. Azərbaycan Dövlət Rəssamlıq Texnikumuna qəbul olunur. O zamanlar rəssamlıq sənətində müxtəlif formalist cərəyanların nümayəndələri ilə realist ənənələrə sadiq qalanlar arasında qızğın mübarizə dövrü idi. Lakin təhsil aldığı məktəbdəki müəllimlərin əksəriyyətinin məhz realist sənətin təbliğinə və inkişafına tərəfdar olduqları üçün Cəlal Qaryağdı dörd il ərzində yad cərəyanların təsirlərinə məruz qalmadan realizm ənənələrinə sadiq olmuşdur.

1932-ci ildə Rəssamlıq texnikumunu qurtardıqdan sonra gənc Cəlal Qaryağdı məzunu olduğu məktəbdə pedaqoji fəaliyyətə başlayır. O, həmin məktəbin ilk azərbaycanlı müəllimlərindən idi. "Kommunist", "Bakinskiy raboçiy", "Gənc işçi", "Yeni yol" qəzetlərində plakatlar, karikaturalar çəkir, bir çox nəşriyyat və redaksiyalarda rəssam kimi fəaliyyət göstərir. "Kommunist" qəzetindəki "Vahid cəbhə" (1932), "Gənc işçi" də çəkdiyi "Antifaşist" (1933) şəkilləri rəssamın qüdrətli işlərindəndir. Onun təsvir etdiyi obrazlarda beynəlxalq sosial-siyasi həyatın aktual hadisələri işıqlandırılırdı. Cəlal Qaryağdının bu sahədəki fəaliyyəti irəliləyən zamanlarda onun sənət dünyasında güclü bir heykəltəraş kimi özünü təsdiqləməsində fundamental rol oynamışdır.

---

[8] Əliyev Z. XX əsr Azərbaycan heykəltəraşlığının inkişaf mərhələləri / Z.Əliyev – Bakı: Elm və təhsil, - 2016. – s. 18.

Həm pedaqoji fəaliyyətlə məşğul olması, həm də nəşriyyatda çalışmaq onu gələcəkdə professional sənətə can atmasına doğru istiqamətləndirir.

Böyük Vətən müharibəsi illərində Cəlal Qaryağdının dəzgah yaradıcılığı sahəsindəki işləri çoxəhatəli tədqiqat mövzusudur. Bu illərdə fırça və tişəsini döyüşkən ruha kökləyən sənətkar öz yaradıcılığında əsasən ön cəbhədə vuruşan, arxa cəbhədə çalışan Azərbaycanın oğul və qızlarının qəhrəmanlığını tərənnüm etməyə, onların ölməz obrazını yaratmağa, qəlblərdə yaşatmağa çalışmışdır.

Fəaliyyətinin bu mərhələsində heykəltəraşın yaradıcılığını səciyyələndirən portretçilik siması şəkil alır. Cəlal Qaryağdı naturanı dəqiqliklə mənimsəmək üçün çoxlu səy göstərir, onu maraqlandıran təkcə portret bənzərliyi deyil, həmçinin qəhrəmanlarının daxili aləmini açabilmə kimi əsas özəlliyi də vacib sayırdı.

Peşəkar heykəltəraş olmaq arzusu gənc rəssamı təhsilini yeni istiqamətdə davam etdirməyə vadar edir. Buna görə də 1934-cü ildən etibarən Cəlal Qaryağdı öz təhsilini artırmaq və daha da təkmilləşdirmək üçün Tbilisi Rəssamlıq Akademiyasına daxil olur. O, Akademiyada Gürcüstanın Xalq rəssamı, görkəmli portretçi-heykəltəraş Yakob Nikoladzenin (1876-1951) emalatxanasında sənətin sirlərinə yiyələnməyə başlayır. Dərs aldığı müddət ərzində müəllimlərinin tövsiyələrinə məsuliyyətlə yanaşaraq Y.İ.Nikoladzenin rəhbərlik etdiyi emalatxanada üç ildən artıq işlədiyi müddətdə onun fərdi yaradıcılıq üslubunu və yanaşma tərzini dərindən öyrənir.

Yaratdığı insan obrazlarının dərin psixoloji cəhətlərinə daha çox fikir verən gənc heykəltəraş təhsil aldığı Akademiyanın bir çox texniki vərdişlərini də yaradıcılığına əlavə edir. Onun iş prosesində bu vərdişlərdən bəhrələnməsi aydın görünür. Cəlal Qaryağdının Tbilisi Rəssamlıq Akademiyasında keçirdiyi tədris illərinin gələcək heykəltəraşın yaradıcılığının təkmilləşməsinə böyük təkanı olmuşdur.

Təhsilinin sonunda böyük rus şairi A.S.Puşkinin yubiley tədbirləri çərçivəsində keçirilən sərgidə Cəlal Qaryağdı özünün ilk yaradıcılıq əsərini - Puşkinin barelyefini (1937) nümayiş etdirir.

1937-ci ildə Tbilisi Rəssamlıq Akademiyasını bitirən gənc Cəlal Qaryağdı Vətənə qayıdıb müstəqil yaradıcılıq fəaliyyətinə başlayanda o dövrün ab-havasından kənarda qala bilməzdi. 1937-ci illərin amansız repressiyası tüğyan edən dövrdə onun ilk sərbəst işləri keçmiş V.İ.Lenin muzeyinin Bakı filialı üçün düzəltdiyi 26 Bakı komissarlarına həsr

olunmuş portretlərdir. Məşədi Əzizbəyovun, Alyoşa Caparidzenin və İvan Fioletovun büstləri (1937) muzey ləğv olunana kimi orada saxlanılmışdır.

Məlum olduğu kimi, Cəlal Qaryağdı yaradıcılığının zirvəsi ötən əsrin 40-cı illərinə təsadüf edir. Yaradıcılığının əsas hissəsi kommunist ideologiyasının hakim olduğu dövrlə üst-üstə düşsə də onun yaratdığı heykəllərdə bu siyasiləşmiş mövqelərə az rast gəlinir. Həmçinin stabil, özünəməxsus yonulma manerasına, forma, biçim və mütənasiblik meyarlarına sadiqlik, təxəyyülün, düşüncələrin aydınlığı onun əsərlərində öz əksini tapmışdır.

Böyük Vətən müharibəsindən sonra fəaliyyətini daha da gücləndirən heykəltəraşın yaradıcılıq axtarışları yaddaqalan obrazların yaradılmasına yönəldilmişdir. O, öz yaradıcılıq axtarışlarında tarixi mövzulara, Azərbaycanın görkəmli xadimlərinin obrazlarını yaratmaq işinə daha çox yer vermişdir. Müharibə qəhrəmanlarının portretlərini yaratmaq heykəltəraşın sevimli işi olmuşdur. O, qəhrəmanların iradə və əyilməzliyini qabardır, insan xarakterinin müsbət cizgilərini tərənnüm edirdi.

Keçən əsrin 50-60-cı illəri heykəltəraşın yaradıcılığının ən məhsuldar dövrüdür. Vladimir İliç Leninin, Mirzə Ələkbər Sabirin monumental heykəlləri, Səməd Vurğunun qəbirüstü abidəsi, məşhur musiqiçilərin portretləri həmin dövrün uğurlu işləridir.

Cəlal Qaryağdının müəllifi olduğu hər bir sənət əsəri özünün unikallığı, bütövlüyü ilə seçilir. O, Azərbaycanda heykəltəraşlıq sənətinin aparıcı inkişaf tendensiyalarını müəyyənləşdirən və onun yüksək inkişaf səviyyəsinə çatmasına təkan verən heykəltəraş idi.

Dissertasiyanın birinci fəslinin **“Cəlal Qaryağdının dəzgah heykəltəraşlığı nümunələrinin bədii xüsusiyyətləri”** adlı ikinci paraqrafında heykəltəraşın dəzgah yaradıcılığı nümunələri nəzərdən keçirilir.

Hər bir sənətkar kimi Cəlal Qaryağdının da dəzgah plastikasında bədii estetik və ifadə prinsiplərinə müvafiq kompozisiyalar yaratmasının başlıca səbəbi monumental heykəllərdə gerçəkləşdirə bilmədiyi incə duyğu və hissləri dəzgah heykəltəraşlığında ifadə etmək imkanına malik olmasıdır.

Yaradıcılığının erkən mərhələsində heykəltəraşlığın barelyef növünə daha çox maraq göstərən Cəlal Qaryağdı görkəmli gürcü şairi, “Pələng dərisi geymiş pəhləvan” kimi məşhur əsərin müəllifi Şota Rustavelinin barelyef-portretini (1937) yaradır. Artıq bu barelyefdə gənc

heykəltəraşın incə plastik formalar qurmaq bacarığı ilə bərabər özünəməxsus yapma texnikasının və incə plastik səthlərin mahir ifaçısı kimi çıxış edir.

Cəlal Qaryağdının Nizami muzeyinin vestibülünü bəzəyən, Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasının motivləri əsasında hazırladığı, "Fərhad Bisütun dağını yararkən" (1943) relyef kompozisiyası Azərbaycanın dəzgah heykəltəraşlığının ən gözəl və eyni zamanda özündə lirik ovqat daşıyan nümunələri sırasındadır. Burada ön planda xalqın böyük qüvvəsini tərənnüm edən Fərhadın öz bəxtinə yol açması üçün Bisütun dağını yarması təsvir olunur. Barelyefdə heykəltəraş hərəkətdə kəskinliyi, kompozisiyada dinamikliyi peşəkarcasına əks etdirmişdir. Bu əsərin uğurunun əsas səbəbi Cəlal Qaryağdının yüksək peşəkarlığı ilə yanaşı, Nizami lirikasını tam anlaması, obrazlı şəkildə qavraması, yaradıcılıq fantaziyası, təxəyyülü və igid qəhrəman Fərhad obrazına sevgisidir. Ona görə də bu obraz əzəmətli və yaddaqalandır.

Cəlal Qaryağdının hazırladığı XIX əsr Azərbaycan lirik şairəsi Xurşidbanu Natəvanın büstü (1948) heykəltəraşın istedadının əsas cəhətlərini, milli ruhunu və duyğularını əks etdirir. Cəlal Qaryağdı Natəvanı dövrünün geyim tərzində, başında örpəyi ilə təsvir edərək insanlara incə duyğular bəxş edir. Heykəltəraş bu sənət nümunəsində geniş dünyagörüşlü şairə mütəfəkkir, tipik Azərbaycan qadını, ana obrazı yaratmağa nail olmuşdur.

Cəlal Qaryağdı yaradıcılığında yer alan maraqlı dəzgah nümunələrindən biri də Azərbaycanda inqilabi satiranın banisi Mirzə Ələkbər Sabirə həsr olunmuş kompozisiyalı portretdir (1962). Öz daxili aləminə qapılan, ilham anını yaşayan şair Cəlal Qaryağdı təxəyyülü və tişəsi ilə realist sənətkar obrazı kimi təsvir olunmuşdur. Bazalt daşından yonulmuş və olduqca orijinal kompozisiyaya malik portret ilk baxışda ümumi görüntüsünə görə görkəmli heykəltəraş, Xalq rəssamı Tokay Məmmədovun eyniadlı əsərini təkrarlayır. Lakin müəyyən oxşarlıq olsa da, hər iki portret bəzi kiçik detallara görə bir-birindən fərqlənir.

1960-cı illərdə Cəlal Qaryağdı Azərbaycanın görkəmli incəsənət xadimlərinin obrazlarını yaradır. Bu zaman o təsvir etdiyi şəxsiyyətlərin simasının xarakterik xüsusiyyətləri ilə yanaşı onların mənəvi aləmlərinə nüfuz etməyə də diqqət yetirmişdir.

Heykəltəraş təxminən 10-12 il ərzində Xalq artistləri Rəşid Behbudovun (1949 və 1953), Bülbülün (1953), görkəmli Azərbaycan bəstəkarları Cahangir Cahangirovun (1954), Fikrət Əmirovun (1960 və

1964), bəstəkar və dünya şöhrətli dirijor, “maestro” Niyazinin (1960), mahir kamança ifaçısı Habil Əliyevin (1961), Qara Qarayevin (1962 və 1965), tarzən Hacı Məmmədovun (1965) portretlərini, “Tarçalan”, “Kamançaçı”, “Xanəndə” fiqurlarını (1967) yaratmışdır.

Azərbaycan musiqisində Şərqlə Qərbin uğurlu sintezini yaradan Qara Qarayevin obrazına Cəlal Qaryağdı iki dəfə - 1962 və 1965-ci illərdə müraciət etmişdir. Musiqini həyatın bəzəyi bilən Qara Qarayevin obrazına heykəltəraşın dəfələrlə qayıtmasına səbəb bəstəkarın zəngin və çoxşaxəli yaradıcılığını müxtəlif baxış bucaqlarından görmək istəyi və yeni ifadə vasitələri tapıb obrazı reallıqla canlandırmaq olmuşdur. Hər yanaşmada Cəlal Qaryağdı bəstəkarın şəxsiyyətinin və ciddi yaradıcılıq yolunun bir yeni cəhətini tapmağı qarşısına məqsəd qoymuşdur.

Heykəltəraşın 1962-ci ildə ağac üzərində yaratdığı obrazda məzmunla formanın vəhdəti, naturaya heykəltəraşın fərqli yanaşması mükəmməl bir portretin yaranmasına səbəb olmuşdur. Bir-birini tamamlayan incə və lirik plastik keçidlər obrazın simasının açılmasına səbəb olur. Tamaşaçı qarşısında dərin fikirlər içində xəyala dalmış sənətkarın qayğılı siması canlanır.

Cəlal Qaryağdı yaradıcılığında mədəniyyət və incəsənət xadimlərinin obrazları ilə yanaşı Böyük Vətən müharibəsində igidlik göstərmiş milli qəhrəmanların obrazları da geniş yer tutur. Bu mənada heykəltəraşın ilk Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülmüş İsrafil Məmmədov (“Zəmanəmizin Koroğlusu”, 1944), Sovet İttifaqı Qəhrəmanları Adil Quliyev (1944-1945) və Aslan Vəzirov (1946-1947), ilk azərbaycanlı snayper qadın Ziba Qəniyeva (1948), ilk azərbaycanlı təyyarəçi qadın Züleyxa Seyidməmmədova (1948) və iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank diviziyasının general - mayoru Həzi Aslanova (1948, 1955) həsr olunmuş heykəllərini qeyd edə bilərik.

Sovet İttifaqı Qəhrəmanı Adil Quliyevin portretini (1945) Cəlal Qaryağdı müəyyən fasilələrlə yaratsa da öz dinamikliyi ilə diqqəti cəlb edir. Adil Quliyevin portreti Azərbaycan plastika sənətinin uğurlu nümunəsidir. Hər şeydən əvvəl portret sənətkarlıq meyarlarına - bədii obrazın inandırıcı həllinə görə mükəmməldir. Heykəltəraş cəsarətli təyyarəçini sadə, gülərüz və çılğın insan kimi təsvir etmişdir. İfadə yığcamlığında, fəal temperamentin təmkinliyində milli səciyyə çox uğurlu aşkarlanmışdır.

Cəlal Qaryağdı yaradıcılığı üçün bir şəxsin obrazına təkrar – dəfələrlə müraciət etmək səciyyəvi haldır. O, hər dəfə həmin obrazın bədii

səciyyələndirilməsində yeni cəhətləri aşkarlamağa səy göstərir. Heykəltəraş üçün belə sevimli obraz iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovdur. O, Həzi Aslanov obrazına 1944, 1948 (iki dəfə), 1955 və 1976-cı illərdə müraciət etmiş, qəhrəmanın portretlərini hazırlamış, gələcək monumental abidə üçün təməl yaratmışdır.

Cəlal Qaryağdının yaradıcılığında Azərbaycanın hərbiçi qəhrəman qadınlarının obrazları da yüksək ustalıqla işlənilmişdir. İlk azərbaycanlı snayper qadın Ziba Qəniyeva (1948) və ilk azərbaycanlı təyyarəçi qadın Züleyxa Seyidməmmədovaya (1948) həsr olunmuş heykəllər bu qəbildəndir.

Heykəltəraşın yaradıcılığında qəhrəman qadın obrazları ilə yanaşı müxtəlif xarakterli və fərqli peşə sahibləri olan qadın obrazlarına da rast gəlirik. Məzmun gözəlliyi ilə ifadə gözəlliyinin ahəngdar birliyindən yaranan "Staxanovçu Kəklik Şükürqızının portreti" (1948), "Qız portreti" (1950), "İdmançı qız" (1955), "Qız" (1959), bazalt materialından hazırlanmış "Şəfqət bacısı" (bəzi mənbələrdə "Tibb bacısı") portret-kompozisiyası (1959) və digər portretləri zamanın sınaqlarına davam gətirərək bu gün də tamaşaçını özünə cəlb edir, sənətin sehrinə salır.

Cəlal Qaryağdının tişəsinin məhsulu olan portretlərində oxşarlıq əsas şərtdir. Oxşarlıq deyiləndə təkcə zahiri görünüş deyil, həm də daxili-mənəvi oxşarlıq nəzərdə tutulur. Zahiri və daxili aləmin vəhdətindən yaranan qəhrəmanın obrazı daha mükəmməl təsvir olunur. Bunu əsas götürən Cəlal Qaryağdı keçən əsrin 50-60-cı illərində çoxsaylı, müxtəlif mövzulu portretlər qalereyası yaratmışdır. Canlı model əsasında işlənilən portretlərdə heykəltəraş mücərrədlikdən uzaq olan realizmə üstünlük vermişdir. O, əsərin yarandığı dövrdə tanınmış insanların portretlərini hazırlayanda özünün natura ilə işləmək bacarığından uğurla yararlanmışdır.

Dissertasiyanın iki paraqrafdan ibarət olan **"Cəlal Qaryağdı yaradıcılığında monumental və memorial-xatirə heykəltəraşlığı"** adlı ikinci fəslinin birinci paraqrafı **"Cəlal Qaryağdı yaradıcılığında monumental heykəltəraşlıq"** adlanır. Keçən əsrin ikinci yarısından monumental heykəltəraşlıqla memarlığın sıx əlaqəsi Cəlal Qaryağdının yaradıcılığında da özünü göstərir. Mirzə Ələkbər Sabirin, Nəriman Nərimanovun, Cəfər Cabbarlının, Həzi Aslanovun monumental heykəlləri bu yaradıcılıq tendensiyasının məhsuludur.

Milli heykəltəraşlıq sənətinin formalaşmasına böyük təsir göstərən Cəlal Qaryağdının yaratdığı obrazların sənətsevərlərin yaddaşında xoş

ovqat, emosional hisslər yaratmasına əsas səbəb bədii ifadəlilik və plastik dinamiklikdir. İnsanın, onun şəxsiyyətinə xas olan incəlikləri ciddi və dərindən öyrənərək sənət əsəri yaratmaq Cəlal Qaryağdının yaradıcılıq axtarışlarının əsasını təşkil edirdi.

*“Heykəllər qalereyasını xatırladan, möhtəşəmliyi ilə diqqəti cəlb edən, yaxınlıqdan ötüb keçənləri bir anlıq da olsa ayaq saxlayıb baxmağa həvəsləndirən Nizami adına Ədəbiyyat Muzeyinin binası heykəltəraşlıqla memarlığın sintezinə ən gözəl nümunə sayılır”*[9]. Bu xəzinəni bəzəyən sənət incilərindən biri də Cəlal Qaryağdının böyük həvəslə və istedadla yaratdığı Vaqifin monumental heykəlidir. Molla Pənah Vaqifin abidəsi Cəlal Qaryağdının şərhində böyük şair, siyasi və ictimai xadim kimi ifadə olunmuşdur. İki metrlik heykəldə heykəltəraş şairi gözəllik duyğuları ilə süslənmiş lirik əhval-ruhiyyədə və baxışları fikirlərə qərq olmuş şəkildə təsvir etmişdir.

Cəlal Qaryağdının qarşısına qoyduğu məsələnin həllinə özünəməxsus yanaşma tərzi az rast gəlinən yaradıcılıq üsuludur. Onun yaradıcılığı şəxsiyyəti kimi bütövdür. Vaqifin heykəli muzeyin lodjiyasını bəzəyən digər heykəllər ansamblına uyğunlaşmalı, harmonik görünüş yaradaraq monumental dekorativ planda həll edilməli idi. Heykəltəraş qarşısına qoyulmuş bütün məqsədləri yerinə yetirməklə yanaşı, şairin poetik obrazına öz yaradıcılıq dəst-xəttinə uyğun səciyyəvi nüansları da əlavə etmişdir.

Səməd Vurğun obrazı da Cəlal Qaryağdını özünə cəlb edən mövzulardandır. Belə ki, görkəmli heykəltəraş Xalq şairinin bir neçə dəfə (1957, 1963-1965, 1966) bədii görüntüsünü yaratmışdır.

1957-ci ildə heykəltəraş vurğunu olduğu şairin ilk büst-heykəlini işləmişdir. Ağstafa şəhərində ucaldılan bu abidə düzbucaqlı postament üzərində beton materialından hazırlanmış büstdən ibarətdir. Tona salınmış büstün kürsüsü qranitdən hazırlanaraq üzərində heç bir bəzək elementi olmadan sadə tərzdə həll edilmişdir. Səməd Vurğun obrazı Cəlal Qaryağdı tərəfindən şairanə səpgidə bədii görüntüyə gətirilmişdir.

Hər bir əsərində milliliyi önə çəkən Cəlal Qaryağdının Mirzə Ələkbər Sabir heykəlində tipik Azərbaycan ziyalısı, həqiqəti car çəkən şair obrazı canlandırılmışdır.

---

[9] Nərimanoğlu M. Bakının abidə insanları: [Elektron resurs] / “Teleinform” xəbərlər mərkəzi. Bakı, - 2017, 29 oktyabr.

1958-ci ildə qoyulan heykəldə (memarları Ə.İsmayılov və Q.Əlizadə) ilk diqqəti çəkən məqam abidənin oturaq vəziyyətdə olması idi. Cəlal Qaryağdının Sabirin heykəlini oturaq vəziyyətdə yaratmasının səbəbi şairin adını daşıyan bağın kiçik və çox gözəgəlimli olmasıdır. Belə mühitdə ucaldılan heykəlin çox hündür olmaması heykəltəraşın uğurlu sənət tapıntısıdır. İşlənmə üslubuna görə kamera xarakterli heykəlin görünüşünə İstiqlaliyyət küçəsinin qaynarlığı, Elmlər Akademiyasının Rəyasət Heyətinin binasının qotika memarlığı, qədim qala divarlarının əzəmətli görkəmi xələl gətirə bilmədi.

Qaryağdının yaratdığı Sabir surəti dərin zəkalı, ictimai ədalətsizliyə qarşı barışmaz mübariz, vətənpərvər şair surətidir. Bu mübariz ruh heykəlin həm ümumi kompozisiyasında, həm də məğrur simasında duyulur. Onun sifətində, oturuş tərzində, libasında milli cizgilər mühüm rol oynayır.

Heykəlin Azərbaycan monumental heykəltəraşlığında ən uğurlu sənət əsərlərindən biri olmasının səbəblərindən ümdəsi Cəlal Qaryağdının Sabir yaradıcılığına münasibəti, onun poeziyasını dərindən duymasıdır.

Cəfər Cabbarlı irsinə böyük maraq Cəlal Qaryağdının yaradıcılığında həmişə öndə dayanmışdır. O, 1960-cı ildə Bakı Dəmir Yolu Vağzalının yanındakı meydanda qoyulan Cəfər Cabbarlının heykəlini hazırlamaq üçün təşkil olunan müsabiqədə də iştirak etmiş, onun layihəsi qalib olmuşdur. Bəzi fikir ayrılıqlarına görə heykəlin yaradılması baş tutmayıb.

Cəfər Cabbarlı obrazına heykəltəraş ömrünün müdrik çağlarında yenidən müraciət etmişdir. Onun son monumental əsəri 1999-cu ildə dramaturqun doğulduğu Xızı rayonunun mərkəzində ucaldılan heykəlidir. Hündürlüyü üç metr olan abidə bürüncdən hazırlanmış və C.Cabbarlı adına parkın ərazisində qoyulmuşdur.

Cəlal Qaryağdı bu heykəldə ayaq üstə dayanmış dramaturqu öz sənətinə qərq olmuş vəziyyətdə təsvir etmişdir. Onun pozası sadəliyi və həqiqiliyi ilə seçilir. Kompozisiya quruluşu baxımından abidənin lakonik tərzdə icra olunmasına baxmayaraq, özündə bütün vacib xarakterik xüsusiyyətləri canlandırır.

Keçmiş SSRİ məkanında yetişən yaradıcı insanların əksəriyyətinin yaradıcılığında Sovet dövlətinin ideoloji rəhbəri Vladimir İliç Lenin mövzusunun mütləq öz yeri olmuşdur. Cəlal Qaryağdı da “Leniniana” qalereyasına öz töhfəsini vermək üçün 1950-ci ildə Azərbaycan SSR

Nazirlər Soveti tərəfindən elan edilmiş müsabiqədə iştirak etmək qərarına gəlir.

Sovet ideologiyasının onun qarşısına qoyduğu vəzifənin ciddi və məsuliyyətli olduğunu anlayan heykəltəraş beş ildən çox gərgin zəhmətdən sonra bu gün ideoloji baxımdan lazımsız görünən, amma sənətkarlıq cəhətdən mükəmməl bir monumental heykəl ərsəyə gətirir. Bu abidə Bakıda V.İ.Leninə ucaldılan ilk heykəl (1955) idi.

Böyük Oktyabr İnqilabı rəhbərinin 11 metrlik, kürsü ilə birlikdə 27 metrlik bürünc heykəli (memarları L.V.Rudnyov və O.R.Munçdur) öz xarici görünüşü etibarı ilə sadə verilmişdir. Burada biz Leninin xalq kütlələrinə müraciət edən bir vəziyyətdə görürük, onun təkrar olunmayan hərəkətində rəhbərin səfərbəredici qüvvəsi çox aydın göstərilmişdir. V.İ.Leninin fiquru olduqca realistcəsinə işlənmiş, siması çox düzgün tapılmışdır. Həmin əsərə və incəsənət sahəsindəki xidmətlərinə görə Cəlal Qaryağdıya Azərbaycanın Əməkdar incəsənət xadimi adı verilmişdir.

Cəlal Qaryağdı ömrünün müdrik çağında, yaradıcılığının çiçəkləndiyi dövrdə Nəriman Nərimanovun monumental heykəlini yaratmağı qərara alır.

Nəriman Nərimanovun tunc heykəli (memarı T.Abdullayev) 1966-1968-ci illərdə hazırlanmış, 1972-ci ildə qoyulmuşdur. Heykəlin xarici görünüşü harmonikdir, plaşını qolunun üstünə salmış vəziyyətdə şəhərə tərəf baxır. Bu duruşda Nəriman Nərimanov böyük sənətkar, sadə müəllim kimi tamaşaçının nəzərinə çatdırılır. Obrazın plastikliyi, dinamikliyi, cizgilərin ahəngdar mütənasibliyi və aydınlığı heykəldə öz ifadəsini tapıb. Qiymətli sənət əsəri hesab edilən heykəldə daxili ritmlə zahiri görünüş vəhdət təşkil edir.

Ordubad şəhərində, yaşıllıqlarla əhatə olunmuş, abadlıq və yenidənqurma işləri aparılmış parkda 1977-ci ildə məşhur kimyaçı alim, akademik Yusif Məmmədəliyevin heykəli ucalır. Abidə alimin monolit qranit parçasından yonulmuş portretindən ibarətdir. Portret elə oyulmuşdur ki, sanki alimin siması qayadan doğularaq canlanır. Cəlal Qaryağdının yaratdığı heykəl tamaşaçıda estetik duyğular, akademikin şəxsiyyətinə qürur hissi yaradır, şəhərə gözəllik verir.

İkinci fəslin **“Cəlal Qaryağdı yaradıcılığında memorial-xatirə heykəltəraşlığı və qəbirüstü abidələr”** adlanan ikinci paraqrafı heykəltəraşın memorial-xatirə tipli yaradıcılığına həsr olunmuşdur.

Azərbaycanda monumental heykəltəraşlıq nümunələri XX əsrin əvvəllərindən təşəkkül tapsa da, memorial-xatirə heykəltəraşlığı Böyük

Vətən müharibəsindən sonra geniş vüsət almışdır. Hər bir heykəltəraşın yaradıcılığında memorial-xatirə abidələri zamanın müxtəlif çağlarında olmuşdur. Böyük Vətən müharibəsindəki qələbənin ildönümlərində Azərbaycanın bütün rayon və şəhərlərində ayrı-ayrı konkret qəhrəmanların, həmçinin həlak olmuş həmyerlilərimizin xatirəsini əbədiləşdirmək üçün memorial-xatirə abidələri ucaltmaq ənənəyə çevrilmişdi.

Belə memorial heykəltəraşlıq əsərlərdən birini Cəlal Qaryağdı 1979-cu ildə Əsgər Kərimovla birlikdə ərsəyə gətirmişdir. Bu Bərdə şəhərində ucaldılan Böyük Vətən müharibəsində həlak olanların xatirəsinə həsr edilmiş memorial memarlıq ansamblının əsas hissəsi hesab olunan "Ana" heykəlidir. Belə memorial-xatirə komplekslərində ümumiləşdirilmiş bədii obrazı yaradılan Azərbaycan qadını-hörüklərinin birini ağ, o birini qara hörərək gözlərini yollara dikib qəhrəman oğulları gözləyir. Heykəltəraşın istedadının, bacarığının, təxəyyülünün bəhrəsi olan Azərbaycan qadını arxa cəbhədə yorulmadan çalışıb qələbəyə öz töhfəsini verən əməkçi insan obrazı olmaqla bərabər, həm də nigaran anadır.

Cəlal Qaryağdı tərəfindən Həzi Aslanovun xatirəsinə müxtəlif illər (1970-1980-ci illər) və müxtəlif rayonlarda (Beyləqan, İkinci Şahsevən kəndi; Lənkəran) bir neçə memorial-xatirə abidəsi ucaldılmışdır.

Həzi Aslanovun Lənkəranda yerləşən memorial – xatirə abidəsi 8 may 1983-cü ildə ucaldılmışdır. Neçə illərdir üzərində çalışdığı abidə qəhrəmanın Vətəni Lənkəran şəhərinin mərkəzində qoyulmuşdur. Əsər vətən qoruyucusunun adını daşıyan xatirə parkında yerləşir. *"Həzi Aslanovun 5 metrlik fiquru ayaq üstə, döyüşün qızğın çağında, cəbhəyə rəhbərlik etdiyi anı təsvir edir. Ümumi hündürlüyü 11 metrə çatan heykəldə bürünc və qranit materiallarından istifadə edilmişdir"* [10].

Bir çox məşhur heykəltəraşlar kimi Cəlal Qaryağdı da Birinci və İkinci Fəxri Xiyabanda, eləcə də respublikanın müxtəlif bölgə qəbiristanlıqlarında yerləşən qəbirüstü abidələrin müəllifidir.

Qeyd edək ki, bütün yaradıcılığı boyu ərsəyə gətirdiyi digər heykəltəraşlıq əsərlərində nümayiş etdirdiyi monumentallıqla plastik həllini verdiyi obrazların psixoloji yaşantılarının ümumiləşdirilmiş tutumda vəhdətinə nail olan Cəlal Qaryağdı memorial-xatirə abidələrində də bu üsulu uğurla tətbiq etməyə müvəffəq olmuşdur. 1950-ci illərdən

[10] Məmmədov N. Danışan heykəllər // Ədəbiyyat və incəsənət. – 1972, 12 fevral.

etibarən ömrünün sonuna kimi sözügedən sahədə olduqca səmərəli fəaliyyət göstərmiş heykəltəraşın memorial-xatirə abidələri bu gün də öz müasirliyini qoruyub saxlamaqdadır.

Heykəltəraşın müxtəlif xarakterli insanların obrazlarını bədii görüntüyə gətirən memorial heykəltəraşlıq qalereyasında görkəmli ədib, elm və mədəniyyət xadimləri – Xalq şairi Səməd Vurğun (1957), bəstəkarlar Zülfüqar Hacıbəyov (1962) və Soltan Hacıbəyov (1965), akademik Yusif Məmmədəliyev (1963), ictimai-siyasi xadimlər – 1945-1946-cı illərdə Cənubi Azərbaycanda qurulan Azərbaycan Milli Hökumətinin sədri Seyid Cəfər Pişəvəri (1963), tanınmış mühəndis Qalib İsgəndərov (1969), görkəmli dramaturq Cəfər Cabbarlının həyat yoldaşı Sona xanım Cabbarlı (1971), ədəbi tənqidçi Məsud Vəliyev (Bakı, Yasamal, 1974), tarzən Hacı Məmmədov (1982), zabit Elşən Zeynalov (Bakı, Mehdiabad, 1986), Siddiqə Useynova (1989), güləşçi İbrahim Paşa Dadaşov (1991), Aleksandra Yefremovanın (Bakı, Yasamal, 2000) və b. qəbirüstü abidələri xüsusi yer tutur.

1957-ci ildə Cəlal Qaryağdı Səməd Vurğunun memorial abidəsini hazırlayır. *"Qəbirüstü mərmər lövhənin üstündə Səməd Vurğunun tunc qorelyefdə verilən iriölçülü portret cizgilərində şairin həyata fəal və çılğın fəaliyyəti ifadə olunur. Əlavə aksessuarların təsvirindən imtina edən heykəltəraş lakonik, hamı tərəfindən tanınan və sevilən şair obrazını qəbirüstü abidədə kompozisiyanın dominantına çevirə bilmişdir"* [11].

Görkəmli heykəltəraş 1963-cü ildə akademik Yusif Məmmədəliyevin qəbirüstü abidəsini işləmişdir. Birinci Fəxri Xiyabanda yerləşən və qara qranitdən hazırlanmış memorial-xatirə abidəsinin digər qəbirüstü abidələrdən fərqli xüsusiyyəti onun daha monumental tərzdə plastik həllini tapmasıdır. Memorial abidənin mərkəzi hissəsində görkəmli kimyaçı alimin portret qorelyefi həkk olunub. Bu portretdə Cəlal Qaryağdının monumentallığı ilə seçilən dəzgah heykəltəraşlığı nümunələrinə xas səciyyəvi cəhətlər və onun fərdi yaradıcılıq üslubunu xarakterizə edən plastik məziyyətlər öz ifadəsini tapmışdır. Heykəltəraş akademikin portretinin bədii həllinin öhdəsindən yüksək ustalıqla gəlmişdir. Böyük ixtiralar müəllifinin enerji dolu daxili aləminin zənginliyini nümayiş etdirmiş, plastik formaların tamlığını əldə etməklə yaddaqalan bədii obraz təqdim edə bilmişdir.

---

[11] İbrahimov T. Cəlal Qaryağdı / T.İbrahimov. - Bakı: Şərq-Qərb, - 2013. – s. 36-37

Cəlal Qaryağdının İkinci Fəxri Xiyabanda yerləşən müəllifi olduğu qəbirüstü abidələrdən biri də görkəmli Azərbaycan tarzəni, Azərbaycan SSR-nin Xalq artisti Hacı Məmmədovun 1982-ci ildə yaradılmış memorial-xatirə abidəsini qeyd etmək olar. *"Heykəltəraş tarzənin obrazını hələ onun sağlığında 1965-ci ildə işləmişdir. Obrazın üzərində işləməyə başlayan heykəltəraş ifaçının portretinin maraqlı həllini tapmışdır. O vaxt gipsdən hazırlanan portret, tarzənin ölümündən sonra mərmərdən işlənilmiş və elə məhz bu biçimdə olan kompozisiya onun qəbri üzərində qoyulmuşdur"* [12].

Mərmər materialından işlənmiş portretdə Hacı Məmmədov tar ifa edən zaman təsvir edilmişdir. Daha dəqiq desək, burada tarzən səsləndirdiyi musiqinin dərinliyinə qərq olaraq başını azacıq sola əymiş və tarı özünə sıxaraq, sağ əliylə mizrabla çaldığı vəziyyətdə təsvir olunmuşdur. Heykəltəraş burada portretin adi-ənənəvi həllindən imtina edərək, sənətkarın yaradıcı obrazını canlandırmağa üstünlük vermişdir. Heykəl naturadan işləndiyinə görə portret oxşarlığı kifayət qədər dəqiq duyulandır. Portretə baxan hər bir şəxsi də öz sehrli musiqi aləminə aparır, insan sanki bir mərmər parçasından yonulmuş əsəri yox, canlı bir tarzənin ifasını izləyir. Məhz bu bədii məziyyətlərinə görə Cəlal Qaryağdının müəllifi olduğu abidədə yaratdığı obraz işlənmə texnikasının unikallığı və özünün orijinallığı ilə xüsusi diqqət çəkir.

Cəlal Qaryağdı 1986-cı ildə Əfqanıstan müharibəsində həlak olmuş zabitimiz Elşən Zeynalovun xatirəsinə ucaldılan qəbirüstü abidənin də müəllifidir. Qranit materialından hazırlanmış dördbucaqlı başdaşının yuxarı hissəsində qəhrəmanın portreti əzəməti ilə seçilir.

Cəlal Qaryağdının son memorial heykəltəraşlıq əsəri Aleksandra Petrovna Yefremovanın xatirəsinə həsr edilmiş qəbirüstü abidədir. Ağ rəngli bütöv mərmər blokdan yonulmuş qəbirüstü abidə 2000-ci ildə hazırlanmışdır.

Heykəltəraşlıq sənətinin elə bir sahəsi yoxdur ki, Cəlal Qaryağdı özünü sınamasın. Heykəltəraş kimya elminə böyük töhfələr vermiş akademik Yusif Məmmədəliyevin, qəhrəmanlıq tariximizin rəşadətli oğlu, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ölüm maskalarını hazırlamışdır. Bu ölüm maskaları Azərbaycanın iki böyük oğlunun xatirəsinin əbədiləşdirilməsinə xidmət edən ölməz sənət əsərləridir.

---

[12] Seyidəhmədli G. Azərbaycan memorial heykəltəraşlığının bədii xüsusiyyətləri (Fəxri Xiyabanın abidələri əsasında): / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. / - Bakı: 2017. - s. 57

**Nəticədə dissertasiyanın əsas müddəaları yekunlaşdırılmışdır:**

- Cəlal Qaryağdının dəzgah və monumental heykəltəraşlıq əsərləri müasir Azərbaycan heykəltəraşlığının bir çox inkişaf istiqamətlərini və bədii cəhətlərini müəyyən etmiş, bu sənətin gələcək inkişafına əsaslı təsir göstərmişdir;
- Cəlal Qaryağdı yaradıcılığında özünəməxsus yonulma manerası, obrazın simasında ona xas fərdi xüsusiyyətlərin ustalıqla əks olunması və obrazların həm daxili, həm də xarici oxşarlığının tam dəqiqliklə ifadəsinə üstünlük verilməsi, düşüncələrin aydın ifadə edilməsi diqqəti cəlb edir;
- Cəlal Qaryağdının dəzgah heykəltəraşlığının müxtəlif janrlarında ərsəyə gətirilmiş heykəl və barelyefləri sənətkarın yüksək ustalıq məharətini və onun fitri istedada malik olmasını şərtləndirir;
- Cəlal Qaryağdı dünya klassik incəsənətinin ən gözəl ənənələrindən bəhrələnmiş, sərbəst yaradıcılıq həyatına qədəm qoyduğu gündən realist sənət yolunu tutaraq irəliləmişdir. Bu yolda o, özünəməxsus üsluba, yaradıcılıq manerasına malik olmuş, fərdi yaradıcılıq xüsusiyyətlərini inkişaf etdirmişdir;
- Müəllifin yaradıcılığı onun eyniliklə kifayətlənməyərək, daim axtarışda olduğunu, təkmilləşməyə, əsərlərini mükəmməlləşdirməyə, təkrarçılıqdan imtinaya can atdığını sübut edir;
- Cəlal Qaryağdının yaratdığı sənət əsərləri milli monumental heykəltəraşlığın təməlinin qoyulmasında müstəsna rol oynamışdır;
- Cəlal Qaryağdının monumental heykəltəraşlıq nümunələri fərqli ifadə tərzi, obrazın bütövlüyü və təsvir olunanın real həyati xüsusiyyətlərinin çatdırılması ilə səciyyələndirilir;
- Monumental abidələrinin şəhər mühitinə və ya yerləşdiyi ərazinin arxitekturasına uyğunluğu müəllifin yüksək peşəkarlığa nail olmasının bariz göstəricisidir;
- Cəlal Qaryağdının memorial-xatirə heykəltəraşlığına gətirdiyi yeniliklər, verdiyi töhfələr danılmazdır;
- Çağdaş dövrümüzdə hər gün inkişaf etməkdə olan heykəltəraşlıq estetik çərçivəni üstələyərək daha çox araşdırma xarakteri daşıyır. Heykəltəraş sənət adamı olmaqla yanaşı, həm də araşdırmaçı elm adamının işini görüb həyat reallıqlarını tişəsinin diliylə təsvir etmişdir.

**Mövzu ilə bağlı müəllif tərəfindən aşağıdakı məqalələr dərc edilib:**


1. Heykəltəraş Cəlal Qaryağdının monumental əsərlərinin bədii xüsusiyyətləri // ADMİU-nun Elmi əsərləri, № 24, Bakı, 2017, s. 250-255.
2. Cəlal Qaryağdının yaratdığı heykəltəraşlıq əsərlərinin bədii xüsusiyyətləri // Təsviri və dekorativ-tətbiqi sənət məsələləri, №20, Bakı, 2017, s. 101-104.
3. Cəlal Qaryağdı yaradıcılığında tarixi şəxsiyyətlərin obrazları // Musiqi dünyası, №2 (75), Bakı, 2018, s. 39-42.
4. Cəlal Qaryağdının yaradıcılığında yaradıcı şəxsiyyətlərin obrazları // Mədəniyyət dünyası, ADMİU, № XXXV, Bakı, 2018, s. 148-152.
5. Творчество Джалала Гарягды // Научные исследования в сфере гуманитарных наук: открытия XXI века. Материалы VII Международной научно-практической конференции, 3-4 октября 2018, Пятигорск, с. 65-69.
6. Cəlal Qaryağdının yaradıcılığı // Mədəniyyət: Problemlər və Perspektivlər. Doktorant və Gənc Tədqiqatçıların XII Beynəlxalq Elmi Konfransı, 5 aprel 2018, Bakı: ADMİU, s. 86-87. (tezis).
7. Художественные образы в творчестве Джалала Гарягды // Paradigmata poznani, "Sociosfera-CZ", №4, Praha, Ceska respublika, 2019. c. 46-50.
8. Xalq rəssamı Cəlal Qaryağdının yaradıcılığında qadın obrazları // Elm, mədəniyyət və incəsənətin qarşılıqlı əlaqəsi və müasir cəmiyyətin inkişafında rolu adlı III Respublika elmi-nəzəri konfransı, 19-20 dekabr 2019, Bakı: ADMİU, s. 189-194.
9. Cəlal Qaryağdı yaradıcılığında memorial heykəltəraşlığın bədii xüsusiyyətləri (qəbirüstü abidələr əsasında) // - Bakı: ADMİU, Elmi Əsərlər, - 2020. №28, - s. 200-205.
10. Cəlal Qaryağdı yaradıcılığında janr müxtəlifliyi // ADMİU-nun Elmi əsərləri, №30, Bakı, 2021, s. 118-123.
11. Роль Джалала Гарягды в развитии азербайджанской скульптуры XX века // Искусство и образование, №6 (134), Москва:Адвансед солюшнз, 2021, с. 42-48.
12. Cəlal Qaryağdının yaradıcılığında milli qəhrəman obrazları // Qalib Ölkə, Qəhrəman Xalq. Doktorant və Gənc Tədqiqatçıların Respublika Elmi-Nəzəri Konfransı, 11 yanvar 2022, Bakı: ADMİU, s. 294-299.

Dissertasiyanın müdafiəsi 29 noyabr 2023-ci il tarixində saat 11.00-da Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Azərbaycan Dövlət Rəssamlıq Akademiyası AZ 1029, Bakı şəhəri, Heydər Əliyev prospekti 26.

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının www.azra.edu.az rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 25 oktyabr 2023-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25 sentyabr 2023
Kağızın formatı: A5
Həcm: 40766
Tiraj: 100